**19.06.2009**
**MƏNBƏ: APA**

**Azərbaycan şirkəti Gürcüstanda avtomobil yolunun tikintisini icra etmək üçün müqavilə imzaladı**

Avropanın BNE portalının (www.businessneweurope.eu) yaydığı məlumata görə Azərbaycanın tikinti şirkəti olan "Azərinşaatservis" MMC ilə "Minilliyin Çağırışı – Gürcüstan" fondu arasında 12 iyun 2009-cu ildə 15 milyon ABŞ dolları olan müqavilə imzalanmışdır.

Müqaviləyə görə "Azərinşaatservis" MMC Teleti-Koda-Asureti avtomobil yolunun reabilitasiyasını həyata keçirəcək. Bu işlər Samtsxe-Cavaxetiya avtomobil yolunun reabilitasiyası layihəsi çərçivəsində həyata keçiriləcək.

Layihənin icra müddəti 18 aydır.